*Cənubi Azərbaycan ədəbiyyatı*

# Xalq şairi Süleyman Rüstəmin Cənubi Azərbaycan şeirinə təsiri

**Lətifə Mirzəyeva**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.

**Annotasiya.** Xalq şairi Süleyman Rüstəm yeganə Şimali Azərbaycan şairidir ki, Cənub mövzusunda 400-dən yuxarı əsər qələmə almışdır. Onun əsərlərinin həm Şimalda, həm də Cənubda yaranan əsərlərə böyük təsiri olmuş, hər iki tərəfdə yaranan ədəbiyyatda silinməz izlər buraxmışdır. Bu əsərlərə Cənubi Azərbaycanda bir çox cavab, təzmin, bənzətmə və nəzirələr yazılaraq münasibət bildirilmişdir.
Cənubda Süleyman Rüstəmlə fəxr edərək onu qələm sahibləri özlərinə müəllim hesab edir, şeir yazmağın sirlərini ondan öyrəndikləri üçün qürur duyurlar.
"Cənubun elə bir tanınmış şairi yoxdur ki, Süleyman Rüstəmdən təsir almasın".
Cənublu qələm sahiblərinə Süleyman Rüstəmin yalnız poeziyası deyil, onun əsərlərinin dil xüsusiyyətləri də öz təsirini göstərmişdir.
İllər boyu Təbrizin başından bir çox dumanlar keçsə də S.Rüstəmin ayaq izləri onun küçələrindən, səsi meydanlarından şeirləri igid oğlanlarının, ismətli qızlarının yaddaşından silinməmişdir.
**Açar sözlər:** ilham, təsirlənmək, həsrət, poetik ustalıq

**Məqalə tarixçəsi:** göndərilib – 16.07.2022; qəbul edilib – 27.07.2022

# Influence of the People's poet Suleyman Rustam on South Azerbaijani poet

**Latifa Mirzayeva**
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.

**Abstract.** The People's Poet Suleyman Rustam is a only poet of South Azerbaijan who wrote more than 400 works on the theme of the South. His writings had a great influence on works created both in the North and in the South and left an indelible mark on the emerging literature on both sides. Many responses, compensations, analogy and imitative poems were written to these works in South Azerbaijan.
In the South the poets are proud of Suleyman Rustam, consider him their teacher and are proud to have learned the secrets of writing poetry from him.
"There is no well-known poet in the South who was not influenced by him".
Not only the poetry of Suleyman Rustam, but also the linguistic features of his works influenced Southern poets.
Although many events have happened to Tabriz over the years, but the traces of Suleyman Rustam have not been erased from its streets, his voice from its squares, his poems from the memories of his brave sons and moral daughters.
**Keywords:** inspiration, be affeccted, longing, poetic mastery

**Article history:** received – 16.07.2022; accepted − 27.07.2022

## Giriş / *Introduction*

Şimali Azərbaycan şairlərinin, onların yaradıcılığının cənublu qələm sahiblərinə, çoxsaylı əsərlərinə böyük təsiri olmuşdur. Cənubi Azərbaycan şairlərinin yaradıcılığını tədqiq və təhlil etdikdə onlara Mirzə Ələkbər Sabirin (1862-1911), Abdulla Şaiqin (1881-1959), Əliağa Vahidin (1895-1965), Səməd Vurğunun (1906-1956), Süleyman Rüstəmin (1906-1989), Məmməd Rahimin (1907-1977), Rəsul Rzanın (1910-1981), Mirvarid Dilbazinin (1912-2001), Nəbi Xəzrinin (1924-2007), Bəxtiyar Vahabzadənin (1925-2006) və başqalarının dərin təsirini görürük. Cənubi Azərbaycanın demək olar ki, bütün məşhur şairləri bu qələm sahiblərinin ölməz əsərlərinə təzmin, bənzətmə, nəzirələr və cavab yazmış, onlardan təsirlənmişlər.

İstər ümumilikdə Azərbaycan ədəbiyyatının və istərsə də adlarını çəkdiymiz müəlliflərin təsiri altında yaranan Cənubi Azərbaycan ədəbiyyatı məzmun və forma etibarı ilə yeni bir ədəbiyyatdır.

## Əsas hissə / *Main Part*

Xalq şairi Süleyman Rüstəm yeganə Şimali Azərbaycan şairidir ki, Cənub mövzusunda 400-dən yuxarı əsər qələmə almışdır. Bu mövzuda çox əsər yazmasının səbəbini şair "Əsər əsər üstdən" şeirində "Süleymanam mənə lənət deyər sabah ellər, Bu haqda yazmasam hər gah əsər, əsər üstdən" – deməklə açıqlayır.

S.Rüstəmin sovet ordusu sıralarında Cənubi Azərbaycanda fəaliyyət göstərdiyi, onun dərdliqəmli qardaş-bacılarının kədərinə şərik olduğu, göz yaşlarını sildiyi anları görmədiyinə təəssüflənən cənublu şair Əli Tudə "Bilirəm mən bu yolda tək deyiləm" şeirində söz açaraq onun çoxsaylı əsərlərinin hər misrasının belə Təbrizdə dildən-dilə düşməsindən qürur duyur:

*Elə bir şeirini tanımadım ki, mən*
*O taydan, Təbrizdən danışmayasan.*
*Böyük dərdimizi şeirə düzüb sən,*
*Həyatda məndən sox alışmayasan.* [13, s.14]

Məhəmməd Biriya da «Möhtəşəm şair» şeirində «Azərbaycanın böyük iftixarı» adlandırdığı gözəl məramlı, yüksək məsləkli, parlaq inamlı olması ilə fəxr etdiyi, yalnız Azərbaycanın deyil, bütün Şərqin ədibi kimi qiymətləndirdiyi S.Rüstəmin cənublu soydaşları ilə əlaqədar keçirdiyi narahatlıqlarını dəyərləndirir və həmkarına böyük ümidlər bəslədiyini vurğulayır:

*Sən düzsən, dünyada zaval yox düzə,*
*Düşmənlə həmişə gəldin üz-üzə.*
*Süngün cavab verər minə, beş yüzə,*
*Sahilsiz dənizdə mərd istər üzə.*
*Həqiqət şairi, əziz Süleyman,*
*Sevir əşarını Təbriz, Süleyman!* [2, s.56]

F.Hasarinin «Süleyman qardaşıma», «Təbrizdən məktub», «Hicran nəğməsi», S.R.Qəvaminin «Dözərəm mən», «Özümdə qalıb», M.Şəhriyarın «Aman ayrılıq» (Süleyman Rüstəmə), «Süleyman Rüstəmə» (İki qardaş arasında), M.H.Hasarinin «Azadlığa çatacaq», B.Nüsrətin «Qardaş həsrəti», M.Səidin «Süleyman Rüstəmə» və başqa şeirlərdə, M.Şəhriyarın, doktor C.Heyətin, şair Eloğlunun məktublarında, H.Nitqinin, H.Məmmədzadənin məqalələrində S.Rüstəmə, onun cənub yaradıcılığına sonsuz məhəbbətin təzahürünü görürük.

*Amandı, çıxmasın yaddan Süleyman,*
*Göz yaşilə Cənub həsrətin yazan.*

*İncə söz ustadı, o, böyük insan,*
*Gəlsin, qurban kəsim ayaqlarına,*
*Həm özünə, həm də qonaqlarına.* [3, s.130]

Şah üsul-idarəsi dövründə S.Rüstəmin şeirlərinin oxunulması İranda qadağan ediləndə xalqın həmin şeirləri şirniyyat qutularının içinə yazıb Novruz bayramında qiymətli hədiyyə kimi bir-birlərinə bağışlamaları da şairin və onun əsərlərinin Cənubda nə qədər sevildiyinin bariz nümunələrindəndir.

«Bir anlığa fikirləşirsən ki, Süleyman Rüstəm olmasaydı XX əsr Azərbaycan poeziyasında hansı boşluqlar və çatlar yaranardı. Axı, Cənub həsrətini kim Süleyman Rüstəm qədər böyük yanğı və poetik ustalıqla əks etdirə bilərdi? Cənub mövzusunda S.Rüstəmdən sonra da nə qədər şeirlər yazılsa, bunlar S.Rüstəmin şeirlərinin cazibəsindən yaranmışdır [14, s.104].

S.Rüstəmin cənub şeirlərinin yalnız Şimali deyil, Cənubi Azərbaycan şairlərinə də böyük təsiri olmuş, orada yaranan ədəbiyyatda silinməz izlər buraxmışdır. Bu əsərlərə bir çox cavab, təzmin, bənzətmə və nəzirələr yazılmışdır.

Əbülfəzl Hüseyni Həsrətin «Əyilməz», Əli Kəmalinin «Ürək dostuma», Kərim Məşrutəçi Sönməzin «Şeirimiz», «Təzad», Həsən Məcidzadə Savalanın «Azərbaycanın xalq şairi Süleyman Rüstəmin «Yasin əvəzinə» şeirinə cavab» və başqaları bu qəbildən olan əsərlərdəndir.

İkinci Dünya müharibəsi dövründə İranda azadlıq hərəkatının yaxından iştirakçısı olan Ə.H.Həsrət

*Böyük əcdadını gətirib yada,*
*Oynat qılıncını göydə-havada.*
*Azadlıq uğrunda gedən davada,*
*Qana boyansa da dağ-daş əyilmə!* [9, s.210]

– söyləyən S.Rüstəmi heç bir vaxt və hər nə olursa-olsun əyilməyəcəklərinə əmin edir:

*Könlümdə nakəsdən hissi intiqam,*
*Ruhumda ülviyyət tutubdur məqam,*
*Eşqimdə sabitəm, nə qədər varam,*
*Əmin ol, inan ki, bu baş əyilməz.*

*Bir zaman ürəktək təndən ayrıldıq,*
*Nə dərdlər çəkmişik yaşından artıq,*
*İndi öz könlündən ilham almışıq,*
*Olmaz bu xalqımız çaş-baş, əyilməz.* [4, s.239-240]

Təbrizdə təşkil olunmuş Şairlər və Yazıçılar Cəmiyyətinin sədri olmuş şair Ə.Kəmalı də S.Rüstəmin "Əyilmə!" rədifli qəzəlindən ilham alaraq yazmışdı:

*Məni salmışsalar ayrı elimdən,*
*Sənin əziz adın düşməz dilimdən,*
*Mənə arxa olub tutsan əlimdən,*
*Axıtmaz ellərim qan-yaş, əyilməz.* [5, s.174]

S.Rüstəmin K.M.Sönməzə ünvanladığı "Şair Sönməzə" şeirinə bir nəzirə və cavab olaraq Sönməzin qələmə aldığı "Şeirimiz" və "Təzad" əsərlərində şairin S.Rüstəmdən təsirləndiyi aydın görünür:

*Sonsuz hicran dərdinə gəl bir doyunca ağlayaq:*
*Göz yaşından başqa bir zadla silinməz şeirimiz.*

*Şeirimizdə, Sönməzim! Sanki Süleyman təbi var,*
*Hər qarışqa hədyəsin asan bəyənməz şeirimiz.* [11, s.109]

və ya

*Hərçənd Bəxtiyarda Süleyman cəlalı var,*
*Şeiriyyətin kəmalını Rüstəmdə tapmışam.* [12, s.170]

"Yasin əvəzinə" şeirində yaxınlarına dünyasını dəyişən zaman ağlayıb, fəryad qoparmamağı, onu Araz sahilində üzü Təbrizə sarı basdırmağı, vüsal günü qan qardaşlarını görəcəyinə əmin olduğu üçün gözlərinin qapağını örtməməyi vəsiyyət edən Süleyman Rüstəmin bu şeirinə H.M.Savalan "Azərbaycan xalq şairi Süleyman Rüstəmin "Yasin əvəzinə" şeirinə cavab" şeiri ilə cavab vermişdir. S.Rüstəmin səsinə qulaq asmaqdan doymayan, ondan dərdlərinə böyük təsəlli tapan, bu səsin ürəyini ayrılıq oduyla yanmağa qoymayan H.M.Savalan ondan ilham aldığından qürur duyur:

*Qocaman şair, ey el ağsaqqalı,*
*«Savalan»ın səndən alır ilhamı.*
*Elin dərdlərindən halısan – halı,*
*Sevəcəkdir səni müdam el hamı.* [10, s.184]

Cənubdan gələn məktubların birində oxuyuruq: "Ustad Süleyman bizə dil öyrətdi, şeir yazmağın sirlərini başa saldı. Hamımız özümüzü ona oxşatmağa çalışdıq. Sönməz də, Nitqi də, Savalan da, Şeyda da, bir çoxları da özlərini ustadın şagirdi hesab edir və bununla fəxr edirlər".

"Mən bu məktuba aşağıdakı sözləri də əlavə edərdim:

Mədinə xanım da, Balaş da, Həkimə xanım da, Söhrab da özlərini S.Rüstəmin şagirdi hesab edir və bununla fəxr edirlər" [15, s.56].

Cənubi Azərbaycan şeirində siyasi lirikanın inkişafında S.Rüstəmin təsiri xüsusilə qeyd edilməlidir.

Cənubi Azərbaycanın görkəmli ədəbiyyatşünas-alimi və nasiri kimi tanınan Həmid Məmmədzadə 1981-ci ildə qələmə aldığı "Demə dağ-daşdı Süleyman…" adlı məqaləsində yazırdı ki, "Süleyman Rüstəm 40 ildən artıqdır ki, ardıcıl olaraq Cənubi Azərbaycandakı zülmə, işgəncəyə, istibdada, şah rejiminə qarşı kəskin qələmi ilə mübarizəsini davam etdirir. Şairin zəngin yaradıcılığında Cənub mövzusunun özünəməxsus yeri və çəkisi vardır.

Şah rejimi devrildikdən sonra Süleyman Rüstəmin şeirləri qəzet, jurnal və ayrıca kitablarda nəşr olunmaqla İranda geniş oxucu kütlələrinə çatdırılmışdır. Cəsarətlə demək olar ki, Cənubun elə bir tanınmış şairi yoxdur ki, Süleyman Rüstəmdən təsir almasın" [6].

S.Rüstəmin yalnız əvvəlki deyil, yeni nəsillərə də təsiri danılmazdır. Bu Sabir Nəbioğlunun "Misralara çevrilən arzular" məqaləsində də vurğulanır. Müəllif yazır: Bütün yaradıcılığı boyu ən gözəl misraları Cənubdan söz açan sənətinin Güneyə məhəbbət və səmimiyyət dolu axarı ilə könüllər fəth edən Süleyman Rüstəm həyatdan köçüb getsə də nəfəsi yeni gələn nəsillər üçün həmişə doğma və təsirli səslənmişdir. Cənub elləri köksündə Güneyə okean övlad məhəbbəti yaşadan şairi həmişə öz müasiri hesab etmiş, sıralarında addımlayan görmüşlər. Sənətkarlar öz sədaqətli sələflərinin Vətən və xalq haqqında doğma yurdun taleyi ilə əlaqədar bəslədiyi arzuların bir gün həqiqətə çevriləcəyindən dərin bir inamla söz açmışlar. Onların misralarında Süleyman Rüstəm nəfəsini duymaq heç də çətin deyildir:

*Qəlbimi yandırır hicranın közü,*
*Görüm qara olsun baisin üzü.*
*Araz deyil, özgə ayırdı bizi,*
*Qardaş deyə-deyə, ömür oldu hədər,*
*Nəsibimiz olan dərd, qəm, kədər.* [7, s.137]

***Süleyman Salis "Hicran nəğməsi".***

İllər boyu Təbrizin başından bir çox dumanlar keçsə də S.Rüstəmin ayaq izləri onun daşlı-kəsəkli küçələrindən, səsi gur meydanlarından, şeirləri igid oğlanlarının, ismətli qızlarının yaddaşından silinməmişdir.

*Təbriz səngər olmuşdur, haqqım deyən bir elə,*
*Bunu təsdiq eləyən tarixin yaddaşıdır.*
*Kim bilmir ki, Süleyman Cənub şeirlərilə*
*O qəhrəman şəhərin Fəxri Vətəndaşıdır.* [1, s.56]

Cənubi Azərbaycanın qələm sahiblərinə S.Rüstəmin yalnız şeirləri, poemaları, qəzəlləri deyil, onun əsərlərinin dil xüsusiyyətləri də öz təsirini göstərir. Dilçi alim Həmid Nitqi yazırdı ki: "Bu şairdən (Süleyman Rüstəmdən – L.M.) dilimizi daha yaxşı öyrənmək və daha çox sevmək üçün faydalanırıq, zira onun şeirləri dilimizi öyrədən kitablara çoxdandır ki, keçmişdir. O biri tərəfdən də bu gün ən çox möhtac olduğumuz bir şey varsa, o da dilimizi haqqı ilə öyrənməkdir.

Şairin zəngin söz xəzinəsindən üç yüzə yaxın nümunə hazırladıq. Bu sözlərin çoxu illər boyu bizdə, xüsusilə şəhərlərimizdə deyilməyə-deyilməyə yaddan çıxmış və onların yerinə gəlmə sözlərin oturmuş olduğu kəlmələrdir" [8].

## Nəticə / *Conclusion*

Hərtərəfli yaradıcılığında çox mühüm və böyük yer tutan cənub əsərləri Süleyman Rüstəmin müqəddəs pak arzularının, böyük Vətən həsrətinin və birliyinin canlı ifadəsidir. Bu əsərlərin Cənubi Azərbaycan şeirinə təsiri çox olmuşdur və indi də özünü göstərir və bundan sonra da davam edəcəkdir.

Azərbaycanın istər şimalında, istərsə də cənubunda ta qədimdən bu günədək görkəmli şair və yazıçılarımız yazıb-yaratmış və bir-birindən bəhrələnmişlər. Tarix boyu hər yeni qəsbkarın qılıncı ilə Vətən bölünsə də milli-mənəvi bütövlüyünü xalqlarımız ədəbiyyatda və sənətdə heç bir zaman itirməmişlər.

## Ədəbiyyat / *References*


1. Azəroğlu B. Təbrizin fəxri vətəndaşı. "Azərbaycan", 1980, № 3.
2. Biriya M. Möhtəşəm şair. Əsərləri /Tərt. ed. İ.Qəribli/. Bakı: Elm, 2010.
3. Hasari F. Təbrizdən məktub. Cənubdan səslər /tərt. ed. H.Məmmədzadə/. Bakı: Yazıçı, 1987.
4. Həsrət Ə.H. Əyilməz. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, III cild. /Tərt. ed. Z.Əkbərov, T.Əhmədov, B.Abdullayev və baş./. Bakı: Elm, 1988.
5. Kəmali Ə. Ürək dostuma. Xəndan C. Uğur yolu. Bakı: Azərnəşr, 1987.
6. Məmmədzadə H. Demə dağ-daşdı, Süleyman… "Ədəbiyyat və incəsənət", 1981, 9 oktyabr.
7. Nəbioğlu (Əmirov) S. Vüsalın qanadlarında. /Tərt. ed. V.Sultanlı/. Bakı: Elm və təhsil, 2013.
8. Nitqi H. Günəşdən bir pay. "Ədəbiyyat və incəsənət", 1981, 9 oktyabr.
9. Rüstəm S. Əyilmə! Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1947.

10. Savalan H.M. Azərbaycan xalq şairi Süleyman Rüstəmin «Yasin əvəzinə» şerinə cavab. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. Dörd cilddə, IV cild. /Tərt. ed. Z.Əkbərov, M.Aslanov, T.Əhmədov və baş./ Bakı: Elm, 1994.
11. Sönməz K.M. Şeirimiz. Qaranquş yazı gözlər. Bakı: Yazıçı, 1989.
12. Sönməz K.M. Təzad. Cənubdan səslər /Müasir Cənubi Azərbaycan şairlərinin seçilmiş əsərləri. /Tərt. ed. H.Məmmədzadə/. Bakı: Yazıçı, 1987.
13. Tudə Ə. Bilirəm bu yolda mən tək deyiləm. Bakı: Azərnəşr, 1962.
14. Yusifli V. poeziyamızın Süleymanı. "Azərbaycan", 2006, № 3.
15. Zamanov A. Süleyman Rüstəm alovlu mübariz şair. Cənubdan səslər. Bakı: "Min bir mahnı", 2010.

## Влияние народного поэта Сулеймана Рустама на поэзию Южного Азербайджана

**Латифа Мирзаева**
Институт литературы имени Ннизами Гянджеви НАНА. Азербайджан.

**Резюме**. Народный поэт Сулейман Рустам единственный в Северном Азербайджане, кто сочинил более 400 стихотворений на тему Южного Азербайджана. Его произведения значительно повлияли на сочинения североазербайджанских и южноазербайджанских поэтов, оставили неизгладимый след в литературе обеих сторон. В Южном Азербайджане это выразилось в сочинении множества ответных посланий, переложений, подражаний, назире.

В Южном Азербайджане мастера пера с гордостью называют Сулеймана Рустама своим учителем, гордятся тем, что благодаря ему познали тайны стихосложения. Влияние Сулеймана Рустама на южноазербайджанских мастеров пера сказалось не только в его поэзии, но и в особенностях языка его произведений. Сколько бы ни прошло облаков по туманному небу Табриза, но следы Сулеймана Рустама не стёрлись с его улиц, звучит с площадей его голос, его стихи продолжают оставаться в памяти отважных юношей и добродетельных девушек.

**Ключевые слова:** вдохновение, вдохновляться, тоска, поэтическое мастерство